Ədəbiyyat qəzeti



Mina Rəşid

## Ağlama

*Torpaqlarımız uğrunda şəhid olmuş Murtuza Quliyevin anasına*

Bir də sizə gəlimmi?
Ağlama, Qumru xala.
De, dərdindən ölümmü?
Ağlama, Qumru xala.

Səni belə bilməzdi,
Boş gülləyə gəlməzdi,
Şəhidlər ki, ölməzdi -
Ağlama, Qumru xala.

Hara gedim gözündən?
Əksin qalıb üzümdə.
Güc tapmıram özümdə
Ağlama, Qumru xala.

## Unuduruq

...Bir-birimizi görəndə sevinmirik,
Bir-birimizlə öyünmürük,
Unuduruq hərəmiz bir parça.
Vətən torpağı olduğumuzu
Amma yerli-yersiz bar-bar bağırırıq,
Daşı-torpağı necə sevdiyimizdən
dəm vururuq...

## Sərçə

Qışın bu oğlan çağında
Nədir qəlbə söz toxuyan?
Bütün quşlar uçub gedib,
Hansı quşdu o oxuyan?

Quşlar nəğmə deyən yerdə
Nə çoxdu ulayan bayquş.
Ay mənimlə bu çovğunda
Qalıb baş-başa verən quş.

Bir tikə qismətin varmı?
Hər tərəf şaxta, boran, qar.
Özün balaca olsan da,
Yaman böyük ürəyin var.

## Uçurdum səni göylərə

Baxma o qara üzlərə,
Gəl sənə nəğmə söyləyim.
Uçurdum səni göylərə
Gülüm, bəxtəvər eləyim.

Çıxar qəmi ürəyindən,
Qanad aç ruhun üstünə.
İşıq dolsun gözlərinə?
Əlin dəysin göy üzünə.

Allaha tut gül üzünü,
O nurun yoluna qayıt.
Unut xəbis adamları,
Vəfasız dünyanı unut.

## Özünü yoran adam

Sən zülmət adamısan,
İşıq nədi, bilməzsən.
Qəlbin elə daşlaşıb,
Heç imana gəlməzsən.

Axar sular durarmı?
Kin püskür, tufan eylə.
Bütün bu bədxahlığın
Qurban olsun bir *gülə*.

Özünü yoran adam,
Kaş ki, bunu biləsən-
Elə gözəl dünyam var,
Eşitmirəm nə desən.